# Embawood MMC
# Milli Mühasibat Uçotu Standartlarına uyğun şəkildə hazırlanmış
# Birləşdirilmiş Maliyyə Hesabatları və
# Müstəqil Auditorun Rəyi

31 dekabr 2014-cü il

# Mündəricat

Müstəqil Auditorun Rəyi ... 1-2

Birləşdirilmiş Mühasibat Balansı ... 3
Birləşdirilmiş Mənfəət və ya Zərər haqqında Hesabat ... 4
Birləşdirilmiş Kapitalda Dəyişiklik haqqında Hesabat ... 5
Birləşdirilmiş Pul Vəsaitlərinin Hərəkəti haqqında Hesabat ... 6
Birləşdirilmiş Maliyyə Hesabatlarına aid Qeydlər ... 7

# BEST AUDIT LLC

BEST AUDIT LLC
AGA Center, 9th floor,
Khatai district, Khojaly ave.55,
AZ1025, Baku, Azerbaijan
Telephone: [994] 12 464 40 84
Facsimile: [994] 12 464 40 84
www.bestaudit.az

Embawood MMC-nın Səhmdarlarına və Direktorlar Şurasına

*Birləşdirilmiş Maliyyə hesabatları üzrə auditor hesabatı*

Biz, Embawood MMC-nin (bundan sonra "Qrup") 31 dekabr 2014-cü il tarixinə təqdim edilən birləşdirilmiş mühasibat balansı, həmin tarixdə tamamlanan il üzrə birləşdirilmiş mənfəət və zərər haqqında hesabat, birləşdirilmiş kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarından, eləcə də əsas mühasibat prinsiplərinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan birləşdirilmiş maliyyə hesabatlarının audit yoxlamasını apardıq.

*Birləşdirilmiş Maliyyə hesabatlarının hazırlanması üzrə rəhbərliyin məsuliyyəti*

Rəhbərlik bu birləşdirilmiş maliyyə hesabatlarının Azərbaycanın Maliyyə Nazirliyi tərəfindən təsdiq edilmiş Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə görə məsuliyyət daşıyır. Bu məsuliyyətə aşağıdakılar aiddir: birləşdirilmiş maliyyə hesabatlarının hazırlanması ilə əlaqədar, saxtakarlıq və ya yanlışlıqdan qaynaqlanan əhəmiyyətli kənarlaşmaların qarşısını almaq məqsədilə daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi.

*Auditorun məsuliyyəti*

Bizim məsuliyyətimiz apardığımız audit yoxlamasına əsasən bu birləşdirilmiş maliyyə hesabatlarına dair rəy bildirməkdən ibarətdir. Biz audit yoxlamasını Beynəlxalq Audit Standartları əsasında aparmışıq. Həmin standartların tələbinə görə, biz etik tələblərə əməl etməli və auditi elə şəkildə planlaşdırmalı və aparmalıyıq ki, birləşdirilmiş maliyyə hesabatlarında əhəmiyyətli təhriflərin mövcud olmamasına kifayət qədər əmin olaq.

Audit yoxlamasına birləşdirilmiş maliyyə hesabatlarındakı məbləğlər və açıqlamalara dair auditor sübutu əldə etmək üçün prosedurların yerinə yetirilməsi daxildir. Seçilmiş prosedurlar auditorların mülahizəsindən, eləcə də fırıldaqçılıq və ya səhvlər nəticəsində birləşdirilmiş maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərinin qiymətləndirilməsindən asılıdır. Həmin riskləri qiymətləndirərkən auditor müəssisəsinin daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə görə müvafiq audit prosedurlarının işlənib hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sistemini nəzərdən keçirir. Bundan əlavə, audit yoxlamasına mövcud mühasibat siyasətinin uyğunluğunun və rəhbərliyin mühasibat təxminlərinin əsaslandırılmasının qiymətləndirilməsi, eləcə də birləşdirilmiş maliyyə hesabatlarının ümumi təqdimatının dəyərləndirilməsi daxildir.

Biz hesab edirik ki, audit rəyimizi bildirmək üçün əsas verən kifayət qədər və uyğun auditor sübutu əldə etmişik.

*Rəy*

Bizim fikrimizcə, əlavə edilən birləşdirilmiş maliyyə hesabatları bütün mühüm aspektlər baxımından Qrupun 31 dekabr 2014-cü il tarixinə olan maliyyə vəziyyətini, onun fəaliyyətinin nəticələrini və pul vəsaitlərinin hərəkətini Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq həmin tarixdə başa çatan il üçün düzgün əks etdirir.

Bakı, Azərbaycan Respublikası

13 aprel 2015-ci il

Best Audit LLC - Member firm of Russell Bedford

AZƏRBAYCAN RESPUBLİKASI Məhdud Məsuliyyətli Cəmiyyət "BEST AUDIT" Limited Liability Company AZERBAIJAN REPUBLIC

*Embawood MMC*
***Birləşdirilmiş Mühasibat Balansı***
*(Azərbaycan Manatı ilə)*

| | Qeyd | 31 dekabr 2014 | 31 dekabr 2013 |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Əmlak və avadanlıqlar | 5 | 2,598,163 | 2,632,566 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **2,598,163** | **2,632,566** |
| **Qısamüddətli aktivlər** | | | |
| Qısamüddətli debitor borcları | 7 | 3,059,723 | 547,317 |
| Sair qısamüddətli aktivlər | | 1,602,639 | 948,624 |
| Ehtiyatlar | 6 | 7,470,723 | 6,799,293 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 8 | 8,188,737 | 2,891,599 |
| **Cəmi cari aktivlər** | | **20,321,822** | **11,186,833** |
| **CƏMİ AKTİVLƏR** | | **22,919,985** | **13,819,399** |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | 9 | 3,750 | 3,750 |
| Bölüşdürülməmiş mənfəət | | 1,598,050 | 867,980 |
| | | **1,601,800** | **871,730** |
| Azlıqların payı | | 111,299 | 111,299 |
| **CƏMİ KAPİTAL** | | **1,713,099** | **983,029** |
| **ÖHDƏLİKLƏR** | | | |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | 10 | 20,117,188 | 8,973,766 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **20,117,188** | **8,973,766** |
| **Cari öhdəliklər** | | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | 10 | 568,497 | 1,657,147 |
| Qısamüddətli kreditor borcları | 11 | 521,201 | 2,205,457 |
| **Cəmi cari öhdəliklər** | | **1,089,698** | **3,862,604** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **21,206,886** | **12,836,370** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **22,919,985** | **13,819,399** |

13 aprel 2015-ci il tarixində İdarə Heyəti tərəfindən təsdiq edilmiş və imzalanmışdır.

Azərbaycan Respublikası «EMBA-WOOD» məhdud məsuliyyətli cəmiyyəti * Azerbaijan Republic *

Baş Direktor

A. Rüstəm...

Baş Mühasib

| | Qeyd | 31 dekabr 2014-cü il tarixində bitən il | 31 dekabr 2013-cü il tarixində bitən il |
|---|---|---|---|
| Əsas əməliyyat gəliri | 12 | 23,128,877 | 22,887,806 |
| Satışların maya dəyəri | 13 | (11,155,872) | (11,250,432) |
| **Ümumi mənfəət** | | **11,973,005** | **11,637,374** |
| Sair əməliyyat gəlirləri | | 2,398 | 19,821 |
| İnzibati xərclər | 14 | (10,504,232) | (10,002,038) |
| Sair əməliyyat xərcləri | | - | (30,257) |
| **Əməliyyat mənfəəti** | | **1,471,171** | **1,624,900** |
| Maliyyə xərcləri | | (558,583) | (722,464) |
| **Vergiqoyulmadan əvvəl mənfəət** | | **912,588** | **902,436** |
| Mənfəət vergisi xərci | 15 | (182,518) | (180,487) |
| **İl üzrə xalis mənfəət** | | **730,070** | **721,949** |

13 aprel 2015-ci il tarixində İdarə Heyəti tərəfindən təsdiq edilmiş və imzalanmışdır.

Azərbaycan Respublikası «EMBA WOOD» məhdud məsuliyyətli cəmiyyəti * Azerbaijan Republic *

Baş Direktor

A. Rüstəm

Baş Mühasib

***Embawood MMC***
***Birləşdirilmiş Kapitalda Dəyişikliklər haqqında Hesabat***
*(Azərbaycan Manatı ilə)*

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | Cəmi | Azlıqların payı | Cəmi kapital |
|---|---|---|---|---|---|
| **1 yanvar 2013-cü il tarixinə qalıq dəyəri** | **3,750** | **146,031** | **149,781** | **111,299** | **261,080** |
| İl üzrə xalis mənfəət | - | 721,949 | 721,949 | - | 721,949 |
| **1 yanvar 2014-cü il tarixinə qalıq dəyəri** | **3,750** | **867,980** | **871,730** | **111,299** | **983,029** |
| İl üzrə xalis mənfəət | - | 730,070 | 730,070 | - | 730,070 |
| **31 dekabr 2014-cü il tarixinə qalıq dəyəri** | **3,750** | **1,598,050** | **1,601,800** | **111,299** | **1,713,099** |

13 aprel 2015-ci il tarixində İdarə Heyəti tərəfindən təsdiq edilmiş və imzalanmışdır.

Baş Direktor

Baş Mühasib

| | Qeyd | 31 dekabr 2014-cü il tarixində bitən il | 31 dekabr 2013-cü il tarixində bitən il |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Hesabat dövründə xalis mənfəət və ya zərər | | 730,070 | 721,949 |
| Aşağıdakı maddələr üzrə düzəlişlər: | | | |
| Mənfəət vergisi üzrə xərclər | | 182,518 | 180,487 |
| Əsas vəsaitlərin amortizasiyası | | 577,926 | 539,176 |
| Maliyyə gəlirləri | | 558,583 | 722,464 |
| İnvestisiya fəaliyyəti və ya maliyyələşdirmə üzrə fəaliyyətə aid olan digər maddələr | | (2,398) | (19,821) |
| **Dövriyyə kapitalında dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | **2,046,699** | **2,144,255** |
| Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər: | | | |
| Ehtiyatlarda artım | | (671,430) | (1,280,559) |
| Əməliyyat debitor borcları və gələcək dövrlərin xərcləri | | (2,512,406) | (3,072) |
| Sair qısamüddətli aktivlərdə artım | | (654,015) | (933,984) |
| Əməliyyat kreditor borcları və hesablaşmalar | | (1,684,256) | (1,660,829) |
| Ödənilmiş mənfəət vergisi | | (182,518) | (180,487) |
| Ödənilmiş %-lər | | (558,583) | (722,464) |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **(4,216,509)** | **(2,637,140)** |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | | | |
| Əsas vəsaitin satışından daxil olma | | 9,780 | 92,588 |
| Əsas vəsaitlərin alınmasından pul vəsaitlərinin xaric olması | | (550,905) | (609,529) |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **(541,125)** | **(516,941)** |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | | |
| Borc şəklində alınmış məbləğlərdən yaranan pul vəsaitlərinin daxilolmaları | | 19,412,800 | 8,868,548 |
| Borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | | (9,358,028) | (6,814,929) |
| **Maliyyə fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **10,054,772** | **2,053,619** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin hərəkəti** | | **5,297,138** | **(1,100,462)** |
| Bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə olan məbləği | 8 | 2,891,599 | 3,992,061 |
| **İl ərzində pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | | **5,297,138** | **(1,100,462)** |
| **Bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna olan məbləği** | 8 | **8,188,737** | **2,891,599** |

13 aprel 2015-ci il tarixində İdarə Heyəti tərəfindən təsdiq edilmiş və imzalanmışdır.

Baş Direktor

Baş Mühasib

## 1 Qrup və Onun Əməliyyatları

Hazırkı birləşdirilmiş maliyyə hesabatları 31 dekabr 2014-cü il tarixində bitən il üzrə bundan sonra birlikdə "Qrup" adlandırılacaq Embawood MMC ("Şirkət") və onun törəmə müəssisəsi olan Masallı Konserv Zavodu ASC üçün Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 23 iyul 2007-ci il tarixli I-73/1 nömrəli əmri ilə təsdiq edilmiş Kommersiya təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına ("MMUS") uyğun şəkildə tərtib edilmişdir.

Şirkət Azərbaycan Respublikasında yaradılmış və qeydiyyatdan keçirilmişdir. Şirkət payçılarının məhdud məsuliyyət daşıdığı məhdud məsuliyyətli cəmiyyətdir və Azərbaycan qanunvericiliyinə uyğun şəkildə təsis edilmişdir.

Şirkət hazırda Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən verilmiş lisenziya əsasında fəaliyyət göstərir. Şirkət Azərbaycan Respublikasında fəaliyyət göstərən mebel istehsalçısı və pərakəndə satıcısıdır. Şirkətin istehsal obyektləri əsasən Azərbaycan Respublikasının müxtəlif regionlarında yerləşdirilmişdir.

31 dekabr 2014-cü il tarixinə Şirkətin qeydiyyatdan keçmiş hüquqi ünvanı və əsas fəaliyyət yeri aşağıda göstərilmişdir:

Hüquqi ünvan: Dadaş Bünyatzadə küç. 1A, Lökbatan qəsəbəsi, Bakı AZ1063, Azərbaycan Respublikası.

Əsas fəaliyyət yeri: Bəsti Bağırova küç. 15B, Bakı AZ1065, Azərbaycan Respublikası.

31 dekabr 2014-cü il tarixinə Şirkətin aşağıdakı pay sahibləri olmuşdur:

| **Pay sahibləri** | **31 dekabr 2014** |
|---|---|
| Elşad Abbasov | 36% |
| Məşhur Məmmədov | 32% |
| Bəşir Sultanov | 32% |
| | **100%** |

Şirkət 2010-cu ildən Masallı Konserv ASC-nin səhmlərini əldə etməyə başlamışdır və hazırda müəssisənin 93.39% səhmlərinə malikdir. Səhmlərin qalan 6.61% hissəsi müxtəlif fiziki şəxslərə məxsusdur.

## 2 Qrupun Əməliyyat Mühiti

Azərbaycan Respublikasında inkişaf etməkdə olan bazar iqtisadiyyatına xas xüsusiyyətlər mövcuddur. Vergi, valyuta və gömrük qanunvericiliyi Azərbaycan Respublikasında fəaliyyət göstərən şirkətlərin üzləşdiyi hadisələrlə bağlı müxtəlif izahatlara və əlavələrə məruz qalır.

Azərbaycan Respublikasının gələcək iqtisadi inkişafı hökumət tərəfindən iqtisadi artımın təmin edilməsi, o cümlədən, vergi, hüquqi və qanunverici mühitin dəyişdirilməsi üçün həyata keçirilən xarici və daxili tədbirlərdən asılıdır. Rəhbərlik hesab edir ki, hazırkı iqtisadi mühitdə Qrupun fəaliyyətinin davamlılığını və inkişafını təmin etmək üçün bütün zəruri tədbirləri həyata keçirir.

## 3 Əsas Uçot Prinsiplərinin Xülasəsi

***Birləşdirilmiş maliyyə hesabatlarının tərtib edilməsinin əsas prinsipləri.*** Hazırkı birləşdirilmiş maliyyə hesabatları Azərbaycanın Kommersiya Təşkilatları üçüb Milli Mühasibat Uçotu Standartlarına ("MMUS") uyğun olaraq hazırlanmışdır.

## 3 Əsas Uçot Prinsiplərinin Xülasəsi (Davamı)

Qeyd olunan birləşdirilmiş maliyyə hesabatlarının hazırlanmasında istifadə edilən əsas uçot prinsipləri aşağıda göstərilir. Həmin uçot prinsipləri başqa hallar nəzərdə tutulmadıqda, bütün dövrlərə müvafiq şəkildə tətbiq edilmişdir.

***Maliyyə alətləri - əsas qiymətləndirmə üsulları.*** Təsnifat formalarından asılı olaraq maliyyə alətləri ədalətli dəyərdə və ya amortizasiya olunmuş maya dəyərində qeydə alınır. Həmin qiymətləndirmə üsulları aşağıda əks etdirilir.

*Ədalətli dəyər* müstəqil şəkildə fəaliyyət göstərən yaxşı məlumatlandırılmış müstəqil tərəflər arasında əməliyyatın ümumi şərtlər əsasında həyata keçirildiyi zaman aktivin mübadilə edilə bildiyi və ya öhdəliyin yerinə yetirildiyi məbləği təşkil edir. Ədalətli dəyər fəal bazarda alınıb satılan maliyyə aktivləri üzrə cari tələb qiymətini və maliyyə öhdəlikləri üzrə cari təklif qiymətini əks etdirir.

Bazar riskləri qarşılıqlı şəkildə əvəzləşdirilən aktiv və öhdəliklər ilə əlaqədar Qrup qarşılıqlı surətdə əvəzləşdirilən risklər üzrə ədalətli dəyər göstəricilərinin müəyyən edilməsi üçün orta bazar qiymətlərindən istifadə edə bilər və xalis açıq mövqeyə müvafiq tələb və təklif qiyməti tətbiq edə bilər.

Maliyyə aləti fəal bazarda o zaman sərbəst surətdə alınıb satıla bilən aktivlər kimi qəbul edilir ki, onların qiymətləri haqqında məlumat fond birjasında və ya digər maliyyə təşkilatından sərbəst və müntəzəm şəkildə əldə edilə bilsin və bu zaman həmin qiymətlər könüllü şəkildə bazar şərtləri çərçivəsində həyata keçirilən real və müntəzəm əməliyyatları əks etdirsin.

Bazar qiymətləri mövcud olmayan maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək üçün diskont edilmiş pul vəsaitlərinin hərəkəti modeli, könüllü şəkildə həyata keçirilən ən son əməliyyatlar haqqında məlumata əsaslanan modellər kimi qiymətləndirmə üsulları, eləcə də investisiya qoyulan müəssisələr haqqında maliyyə məlumatlarının təhlili istifadə edilir.

*Əməliyyat xərcləri* əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə əlaqəlidir. Əlavə xərclər əməliyyatın həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir. Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri maliyyə xərclərinə daxil edilmir.

*Amortizasiya olunmuş maya dəyəri* əsas məbləğin ödənilməsi çıxılmaqla, lakin hesablanmış faizləri daxil etməklə, maliyyə aktivləri üçün isə dəyərsizləşmə zərərləri üzrə hər hansı silinməni çıxmaqla aktivlərin ilkin dəyərini əks etdirir. Hesablanmış faizlərə ilkin uçot zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz metodundan istifadə etməklə ödəniş məbləği üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya olunmuş diskont və ya mükafat (verilmə zamanı təxirə salınmış komissiyalar daxil olmaqla, əgər varsa) ayrıca göstərilmir və maliyyə vəziyyəti haqqında hesabatda müvafiq maddələrin balans dəyərinə daxil edilir.

*Effektiv faiz metodu* maliyyə alətinin balans dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində uçota alınması metodudur. Effektiv faiz dərəcəsi, təxmin edilən gələcək pul ödənişlərini və ya daxilolmaları (kreditlər üzrə gələcək zərərlər xaric olmaqla) maliyyə alətinin gözlənilən fəaliyyət müddəti ərzində və ya müvafiq hallarda daha qısa müddət ərzində maliyyə alətinin xalis balans dəyərinə diskontlaşdıran dəqiq dərəcədir.

## 3 Əsas Uçot Prinsiplərinin Xülasəsi (Davamı)

Effektiv faiz dərəcəsi maliyyə aləti üçün nəzərdə tutulan dəyişkən faiz dərəcəsi üzrə kredit spredini əks etdirən mükafatlar və ya diskont və yaxud bazar qiymətlərindən asılı olaraq müəyyən edilməyən digər dəyişkən amillər istisna olmaqla, faiz dərəcələrinin növbəti dəyişdirilmə tarixinə qədər dəyişkən faizli alətlər üzrə pul vəsaitlərinin hərəkətini diskont etmək üçün istifadə edilir. Bu cür mükafatlar və ya diskontlar maliyyə alətinin gözlənilən tədavül müddəti ərzində amortizasiya edilir. Diskont dəyərinin hesablanmasına müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış effektiv faiz dərəcəsinin tərkib hissəsini təşkil edən bütün komissiyalar daxildir.

*Maliyyə alətlərinin ilkin uçotu.* Mənfəət və zərər vasitəsilə ədalətli dəyərlə göstərilən ticarət üçün qiymətli kağızlar, derivativlər və digər maliyyə alətləri əvvəlcə ədalətli dəyərdə qeydə alınır. Bütün digər maliyyə alətləri əməliyyat xərcləri də daxil olmaqla ədalətli dəyərdə qeydə alınır. İlkin uçot zamanı ədalətli dəyər ən yaxşı olaraq əməliyyat qiyməti ilə sübut edilir. İlkin uçot zamanı yaranan gəlir və ya zərər yalnız ədalətli dəyər ilə əməliyyat qiyməti arasında fərq olduqda qeydə alınır. Ədalətli dəyər eyni maliyyə aləti ilə aparılan digər cari bazar əməliyyatlarının müşahidəsi və yaxud həmin bazarlardan əldə edilən məlumatlara əsaslanan qiymətləndirmə üsulu ilə sübut edilir.

Qanunvericilik və ya ümumi qəbul edilmiş bazar qaydaları ilə müəyyən edilmiş vaxt çərçivəsində təchiz olunması nəzərdə tutulan maliyyə aktivlərinin bütün digər alış və satışları ("müntəzəm" alış və satışlar), Qrupun maliyyə aktivini almaq və ya satmaq öhdəliyini qəbul etdiyi əməliyyat tarixində qeydə alınır. Alış üzrə bütün digər əməliyyatlar müəssisənin həmin maliyyə aləti üzrə müqavilə tərəfi olduqda qeydə alınır.

İlkin uçotdan sonra maliyyə aktivləri və maliyyə öhdəlikləri sonradan effektiv faiz dərəcəsi metoduna əsasən amortizasiya olunmuş maya dəyərində qiymətləndirilir.

***Maliyyə aktivlərinin uçotdan silinməsi.*** Qrup aşağıdakı hallarda maliyyə aktivlərini uçotdan silir: (a) aktivlər geri alındıqda və ya bu aktivlərlə əlaqədar pul vəsaitlərinin hərəkəti üzrə hüquqların müddəti başa çatdıqda və ya (b) Qrup maliyyə aktivlərindən daxil olan pul vəsaitlərinin axını üzrə mülkiyyət hüququnu ötürdükdə və ya ötürülmə haqqında müqavilə bağladıqda və bu zaman (i) həmin aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə başqa tərəfə ötürdükdə və ya (ii) bu aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə ötürmədikdə və ya saxlamadıqda, lakin, həmin aktivlər üzrə nəzarət hüququnu özündə saxlamadıqda. Nəzarət qarşı tərəfin öz mülkiyyətində olan aktivi satış üzrə məhdudiyyətlər qoymadan əlaqəli olmayan üçüncü tərəfə satmaq üçün praktiki imkana malik olmadığı hallarda saxlanılır.

***Əmlak və avadanlıqlar.*** Əmlak və avadanlıqlar, yığılmış amortizasiyanı və lazım olduqda dəyərsizləşmə üzrə ehtiyatı çıxmaqla, ilkin dəyərdə və ya aşağıda göstərildiyi kimi yenidən qiymətləndirilmiş dəyərdə qeydə alınır.

Kiçik həcmli təmir və istismar xərcləri çəkildiyi zaman xərcə silinir. Əmlak və avadanlıqların əsas komponentlərinin əvəz edilməsi xərcləri kapitallaşdırılır və əvəz edilmiş hissələr balansdan silinir.

Əmlak və avadanlıqlar dəyərsizləşdikdə, onlar binalar və avadanlıqların istifadəsi nəticəsində əldə edilən dəyər ilə satış xərcləri çıxılmaqla ədalətli dəyərdən daha yüksək olan dəyərə silinir. Aktivin balans dəyərindəki azalma dəyərsizləşmə məbləğinin kapitalda göstərilən əvvəlki ilin yenidən qiymətləndirmə ehtiyatından artıq olan həcmdə mənfəət və zərərə aid edilir. Aktivin istifadəsi nəticəsində əldə edilən dəyərin və ya satış xərcləri çıxılmaqla, onun ədalətli dəyərinin müəyyən edilməsi üçün istifadə edilən təxminlərdə dəyişiklik baş verdiyi təqdirdə əvvəlki dövrlərdə hər hansı aktiv üçün qeydə alınmış dəyərsizləşmə üzrə zərərlər bərpa edilir.

Satışdan yaranan gəlir və zərər, gəlirin məbləği ilə balans dəyəri arasındakı fərq kimi müəyyən edilir və il üzrə mənfəət və zərərdə əks etdirilir.

## 3 Əsas Uçot Prinsiplərinin Xülasəsi (Davamı)

***Amortizasiya.*** Əsas vəsaitlər üzrə amortizasiya düz xətt metoduna əsasən, yəni əsas vəsaitlərin aşağıda göstərilən təxmini faydalı xidmət müddəti ərzində aşağıdakı illik amortizasiya dərəcələrini tətbiq etməklə aktivlərin ilkin dəyərini qalıq dəyərinədək azaltmaqla hesablanır:

| | |
|---|---|
| Binalar, tikililər və qurğular | 5-10% |
| Kompüter, rabitə avadanlıqları və digər hesablama texnikası və digər | 20% |
| Mebel, qurğular və sair | 14% |
| Nəqliyyat vasitələri | 15-20% |
| Maşın və avadanlıqlar | 15% |

Aktivin artıq köhnəldiyi və istismar müddəti başa çatdığı halda, satış üzrə təxmin edilən xərclər çıxılmaqla, Qrupun həmin aktivin satışı nəticəsində əldə edəcəyi təxmin edilən məbləğ aktivin qalıq dəyəridir. Qrup aktivi onun fiziki istismar müddətinin sonuna qədər istifadə edəcəyini gözlədikdə, aktivin qalıq dəyəri sıfıra bərabər olur. Aktivlərin qalıq dəyərləri və faydalı xidmət müddətləri lazım olduqda hər bir hesabat dövrünün sonunda nəzərdən keçirilir və dəqiqləşdirilir.

***Əməliyyat lizinqi.*** Qrup lizinqalan qismində çıxış etdikdə və lizinq obyektlərinin mülkiyyət hüququ ilə əlaqədar risk və gəlirlər lizinqverən tərəfindən Qrupa ötürülmədikdə, əməliyyat lizinqi müqavilələri üzrə cəmi ödənişlər, o cümlədən lizinqin dayandırılması zamanı yaranacaq ödənişlər lizinqin müddəti ərzində düz xətt metoduna əsasən mənfəət və zərərə aid edilir.

***Qeyri-maddi aktivlər.*** Qrupun qeyri-maddi aktivləri kapitallaşdırılmış proqram təminatından ibarətdir. Əldə edilmiş proqram təminatı lisenziyaları həmin proqram təminatının alınması və tətbiq edilməsi üçün çəkilmiş xərclərin əsasında kapitallaşdırılır. Qrup tərəfindən nəzarət olunan identifikasiya edilə bilən unikal proqram təminatı ilə birbaşa əlaqəli olan tərtibat xərcləri, çəkilmiş xərclərdən artıq olan əlavə iqtisadi səmərə gətirəcəyi halda qeyri-maddi aktivlər kimi tanınır. Kapitallaşdırılmış xərclərə proqram təminatını tərtib edən işçilərə sərf olunan xərclər və ümumi təsərrüfat xərclərinin müvafiq hissəsi daxildir. Proqram təminatı ilə əlaqədar bütün digər xərclər (məs, texniki dəstək xərcləri) çəkildiyi zaman xərcə silinir. Kapitallaşdırılmış proqram təminatı təxmin edilən faydalı xidmət müddəti (5-10 il) ərzində düz xətt metoduna əsasən amortizasiya olunur.

***Mənfəət vergisi.*** Mənfəət vergisi hazırkı birləşdirilmiş maliyyə hesabatlarında Azərbaycan Respublikasının qüvvədə olan və ya hesabat dövrünün sonunda qüvvəyə minmiş qanunvericiliyinə uyğun olaraq göstərilmişdir. Mənfəət vergisi xərci bu və ya digər dövrdə vergi təsiri bilavasitə kapitalda qeydə alınan əməliyyatlar istisna olmaqla, mənfəət və zərərdə qeydə alınır.

Cari mənfəət vergisi, cari və əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən mənfəət və ya zərər ilə əlaqədar vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq məbləği təşkil edir. Vergiyə cəlb edilən mənfəət və ya zərər haqqında birləşdirilmiş maliyyə hesabatlarının müvafiq vergi bəyannamələrinin təqdim olunmasından əvvəl təsdiqləndiyi halda təxmini göstəricilərə əsasən hesablanır. Mənfəət vergisindən başqa digər vergilər inzibati və digər əməliyyat xərcləri kimi qeydə alınır.

***Ehtiyatlar***. Mal-material ehtiyatları maya dəyəri ilə xalis satış dəyərindən ən aşağı olan dəyərdə qeydə alınır. Mal-material ehtiyatlarının maya dəyəri orta çəki metodu ilə müəyyən edilir. Hazır məhsulun və yarımfabrikatların maya dəyərinə xammalın, birbaşa işçi qüvvəsinin dəyəri, o cümlədən digər birbaşa xərclər və istehsalla bağlı müvafiq qarışıq xərclər (normal əməliyyat tutumuna əsaslanan) daxil, lakin alınmış kreditlər üzrə xərclər xaric olunur. Xalis reallaşdırma dəyəri biznes fəaliyyətinin normal gedişində müvafiq hazırlanma dəyəri və satış xərcləri çıxılmaqla təxmin edilən satış qiymətidir.

## 3 Əsas Uçot Prinsiplərinin Xülasəsi (Davamı)

***Ticarət və digər debitor borcları.*** Ticarət debitor borcları effektiv faiz metoduna əsasən dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla, amortizasiya olunmuş maya dəyərində qeydə alınır.

***Amortizasiya olunmuş maya dəyərində qeydə alınan maliyyə aktivlərinin dəyərsizləşməsi.*** Maliyyə aktivinin ilkin uçotundan sonra baş vermiş bir və ya bir neçə halın ("zərər halları") nəticəsində yaranmış və etibarlı şəkildə təxmin edilə bilən maliyyə aktivi və ya maliyyə aktivləri Qrup üzrə gələcək pul vəsaitlərinin məbləğinə və ya vaxtına təsir göstərən dəyərsizləşmə üzrə zərərlər il üzrə mənfəət və zərərə aid edilir. Ayrıca qiymətləndirilən maliyyə aktivi (əhəmiyyətindən asılı olmayaraq) ilə əlaqədar dəyərsizləşmə üzrə zərərin baş verməsinə dair Qrupda obyektiv dəlil olmadıqda, həmin aktiv analoji kredit riskinə malik olan maliyyə aktivləri Qrupa aid edilir və dəyərsizləşməyə görə birlikdə qiymətləndirilir.

Maliyyə aktivinin dəyərsizləşməsi məsələsinə baxarkən Qrupun nəzərə aldığı əsas amillər həmin aktivin vaxtı keçmiş statusu və hər hansı girov təminatının realizasiya oluna bilməsidir.

Dəyərsizləşmə üzrə zərərin baş verməsinə dair obyektiv əlamətlərin mövcud olmasını müəyyən edən əsas meyarlar aşağıda göstərilir:

- hər hansı ödənişin gecikdirilməsi və bu zaman gecikdirilmiş ödənişin hesablaşma sistemlərindəki gecikmə ilə izah edilə bilməməsi;
- borcalanın əhəmiyyətli maliyyə çətinlikləri ilə üzləşməsi və bunun Qrup borcalan haqqında maliyyə məlumatları ilə təsdiqlənməsi;
- borcalanın müflisləşməsi və ya onun maliyyə strukturunun yenidən təşkil edilməsi riskinə məruz qalması;
- borcalana təsir göstərən milli və ya yerli iqtisadi şəraitin dəyişməsi nəticəsində onun ödəniş statusunda mənfi dəyişikliklərin baş verməsi; və ya
- girovun dəyərinin bazar şərtlərinin pisləşməsi nəticəsində əhəmiyyətli dərəcədə aşağı düşməsi.

Aktivlər üçün dəyərsizləşmə üzrə zərərlərin kollektiv şəkildə qiymətləndirilməsi məqsədilə maliyyə aktivləri analoji kredit risk xüsusiyyətlərinə əsasən qruplaşdırılır. Həmin xüsusiyyətlər qiymətləndirilən aktivlərin müqavilə üzrə şərtlərinə uyğun olaraq borcalanlar tərəfindən bütün məbləğlərin ödənilməsi qabiliyyətinin göstəricisi olmaqla, bu cür aktivlər qrup üzrə gələcək pul vəsaitləri hərəkətinin təxmin edilməsi üçün uyğundur.

Dəyərsizləşməyə qarşı məcmu şəkildə qiymətləndirilən maliyyə aktivləri bankdakı pul vəsaitlərinin gələcək hərəkəti, həmin aktivlərlə bağlı müqavilə üzrə pul vəsaitlərinin hərəkətinə, keçmişdə baş vermiş zərər halları nəticəsində yaranacaq vaxtı keçmiş borcların həcminə dair rəhbərlikdə mövcud olan statistikaya və vaxtı keçmiş borcların geri qaytarılması nailiyyətinə əsasən müəyyən edilir. Keçmiş dövrlərə təsir göstərməyən cari şəraitin təsirini əks etdirmək və cari dövrdə mövcud olmayan keçmiş hadisələrin təsirini aradan qaldırmaq məqsədilə, keçmiş illərin statistikası müşahidə edilə bilən cari məlumatlara əsasən tənzimlənir.

Amortizasiya olunmuş maya dəyərində uçota alınan dəyərsizləşmiş maliyyə aktivi ilə bağlı şərtlərə yenidən baxılarsa və ya bu şərtlər borcalanın və yaxud borcverənin maliyyə vəziyyətindəki çətinliklərə görə dəyişərsə, dəyərsizləşmənin uçotu şərtlərin dəyişməsindən əvvəlki effektiv faiz dərəcəsinə əsaslanır.

Aktivin balans dəyərini effektiv faiz dərəcəsilə diskont edilmiş gələcək pul vəsaitləri hərəkətinin cari dəyərinə (kreditlər üzrə baş verməmiş gələcək zərərlər istisna olmaqla) silmək üçün aktivlər üçün dəyərsizləşmə üzrə zərərlər ehtiyat hesabında qeydə alınır. Girov qoyulmuş maliyyə aktivi üzrə təxmin edilən gələcək pul vəsaitləri hərəkətinin cari dəyərinin hesablanması girovun əldə edilməsi və satılması xərcləri çıxılmaqla, girov nəticəsində yarana bilən (girovun olub-olmaması ehtimal edildikdə) pul vəsaitlərinin hərəkətini əks etdirir.

## 3 Əsas Uçot Prinsiplərinin Xülasəsi (Davamı)

Dəyərsizləşmə üzrə zərərin məbləği sonrakı dövrdə baş vermiş hadisəyə görə azalarsa və həmin azalma obyektiv olaraq zərərin qeydə alınmasından sonra baş vermiş hadisəyə (məsələn, borcalanın kredit reytinqinin artması kimi) aid edilərsə, əvvəl qeydə alınmış dəyərsizləşmə üzrə zərər il üzrə mənfəət və zərər hesabına yaradılmış ehtiyata düzəliş etməklə bərpa edilir.

Aktivlər qaytarıla bilmədikdə onlar, aktivin və ya onun hissəsinin bərpa olunması üçün bütün zəruri prosedurlarıntamamlanmasından və zərərin məbləğinin müəyyən edilməsindən sonra müvafiq zərər ehtiyatından silinir. Əvvəllər silinmiş və sonradan bərpa edilmiş məbləğlər il üzrə mənfəət və zərərdə dəyərsizləşmə üzrə zərər kimi uçota alınır.

***Avans ödənişləri.*** Avans ödənişləri dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla maya dəyərində qeydə alınır. Avans ödənişi üzrə mal və xidmətlərin bir ildən sonra əldə edilməsi nəzərdə tutulduqda, yaxud bu ödəniş ilkin olaraq uçotda uzunmüddətli kimi təsnifləşdiriləcək aktivə aid olduqda uzunmüddətli aktiv kimi təsnifləşdirilir. Aktivi əldə etmək üçün avans ödənişləri Qrup bu aktiv üzərində nəzarət əldə etdikdə və həmin aktivlə bağlı gələcək iqtisadi səmərənin Qrupa daxil olacağı ehtimal edildikdə aktivin qalıq dəyərinə köçürülür. Digər avans ödənişləri bu ödənişlərin aid olduğu mal və xidmətlər əldə edildikdə mənfəət və ya zərərə silinir. Əgər avans ödənişinin aid olduğu aktivlər, mallar, yaxud xidmətlərin əldə edilməməsi gözlənilirsə, həmin avans ödənişinin qalıq dəyəri müvafiq şəkildə balansdan silinir və il üzrə mənfəət və ya zərərdə dəyərsizləşmə üzrə ehtiyat tanınır.

***Pul vəsaitləri və onların ekvivalentləri.*** Pul vəsaitləri və onların ekvivalentlərinə nağd pul, bank hesablarındakı tələb edilənədək və ilkin ödəmə müddəti üç ay və ya az olan digər qısamüddətli və yüksək likvidli investisiyalar daxildir.

***Əlavə Dəyər Vergisi.*** Vergi qurumları tərəfindən satışlar və alışlar üzrə əlavə dəyər vergisinin ("ƏDV") xalis əsasda hesablanmasına icazə verilir.

*Ödəniləcək ƏDV.* Ödəniləcək ƏDV balans hesabatı tarixində alışlar üzrə hesablanmış ƏDV çıxılmaqla, müştərilərdən debitor borclarının yığılması üzrə vergi qurumlarına ödəniləcək satışla bağlı ƏDV-ni əks etdirir. Əlavə olaraq, ödəniləcək ƏDV-yə balans hesabatı tarixində hesablanmamış satışla bağlı ƏDV (təxirə salınmış ƏDV) də daxildir. Debitor borclarının dəyərsizləşməsi üzrə ehtiyat ayrıldığı halda dəyərsizləşmə üzrə zərər ƏDV də daxil olmaqla, debitor borclarının ümumi məbləği üzrə qeyd edilir. Müvafiq təxirə salınmış ƏDV öhdəliyi debitor borcunun vergi məqsədləri üçün silinməsinə qədər qüvvədə qalır.

*Əvəzləşdiriləcək ƏDV.* Əvəzləşdiriləcək ƏDV balans hesabatı tarixində hesablanmamış alışlara aid edilir. Əvəzləşdiriləcək ƏDV alışlar üzrə ödəniş edildikdə satışlar üzrə ƏDV ilə əvəzləşdirilə bilər.

***Faiz xərcləri yaradan öhdəliklər.*** Faiz xərcləri yaradan öhdəliklər ilkin olaraq çəkilmiş əməliyyat xərcləri çıxılmaqla, ədalətli dəyərdə qeyd edilir. Faiz xərcləri yaradan öhdəliklər hesabat dövründən sonra amortizasiya olunmuş maya dəyərində qeyd edilir; daxilolmalar (əməliyyat xərcləri çıxılmaqla) və ödənilmə dəyəri arasında hər hansı fərq effektiv faiz dərəcəsi metodu istifadə edilməklə borc öhdəliklərinin müddəti üzrə gəlir hesabatında tanınır.

***Kreditor borcları.*** Kreditor borcları qarşılıqlı tərəfin müqavilə üzrə öz öhdəliklərini yerinə yetirməsi zamanı effektiv faiz metoduna əsasən amortizasiya olunmuş maya dəyərində qeydə alınır.

***Xarici valyutanın çevrilməsi.*** Qrupun funksional valyutası onun fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutası hesab edilir. Qrupun funksional valyutası və hesabat valyutası Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan Manatıdır ("AZN").

## 3 Əsas Uçot Prinsiplərinin Xülasəsi (Davamı)

Monetar aktiv və öhdəliklər, ARMB-nin müvafiq hesabat tarixinə qüvvədə olan rəsmi valyuta məzənnəsinə əsasən hər bir müəssisənin funksional valyutasına çevrilir. Xarici valyuta ilə əməliyyatların həyata keçirilməsi və ilin sonuna ARMB-nin rəsmi valyuta məzənnəsi ilə xarici valyutada ifadə olunan monetar aktiv və öhdəliklərin hər bir müəssisənin funksional valyutasına çevrilməsi nəticəsində yaranan müsbət və mənfi məzənnə fərqləri mənfəət və zərərə aid edilir.

İlin sonuna qüvvədə olan valyuta məzənnəsi ilə yerli valyutaya çevrilmə qeyri-monetar maddələrə, o cümlədən pay alətlərinə tətbiq edilmir.

31 dekabr 2014-cü il tarixinə qüvvədə olan valyuta məzənnələri:

| | **31 dekabr 2014** |
|---|---|
| EUR 1 | AZN 0.9522 |
| USD 1 | AZN 0.7844 |

***Əvəzləşdirmə.*** Maliyyə aktiv və öhdəliklərinin əvəzləşdirilməsi və xalis məbləğin balans hesabatına daxil edilməsi, qeydə alınmış məbləğlərin əvəzləşdirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş hüquq, eləcə də əvəzləşdirməni aparmaq və ya eyni zamanda aktivi realizasiya edərək öhdəliyi ödəmək niyyəti mövcud olduğu hallarda həyata keçirilə bilər.

***Birləşdirilmiş maliyyə hesabatlarına dərc edildikdən sonra əlavələr.*** Birləşdirilmiş maliyyə hesabatlarına dərc edildikdən sonra hər hansı dəyişikliklərin edilməsi üçün bu birləşdirilmiş maliyyə hesabatlarının dərc edilməsini rəsmiləşdirən Qrupun rəhbərliyinin təsdiqi tələb olunur.

## 4 Uçot Siyasətinin Tətbiqi Zamanı Əhəmiyyətli Ehtimallar və Mülahizələr

Qrup növbəti maliyyə ili ərzində hesabatlarda əks etdirilən məbləğlərə və aktiv və passivlərin balans dəyərinə təsir göstərən ehtimallar və mülahizələr irəli sürür. Həmin ehtimallar və mülahizələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edilir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik, həmçinin peşəkar mülahizələr və ehtimallar irəli sürür. Birləşdirilmiş maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və passivlərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan ehtimallara aşağıdakılar daxildir:

***Əsas vəsaitlər və qeyri-maddi aktivlərin faydalı xidmət müddəti.*** Rəhbərlik, əsas vəsaitlər və qeyri-maddi aktivlər üzrə təxmin edilən ədalətli dəyəri və müvafiq amortizasiya ayırmalarını müəyyən edir. Bu təxminlər, Qrupun həmin aktivlər üzrə iqtisadi səmərə əldə etməyi planlaşdırdığı dövrə əsaslanır. Əgər faydalı xidmət müddəti əvvəlki illərdə təxmin edilmiş faydalı müddətdən aşağı olarsa, o zaman rəhbərlik amortizasiya ayırmasını artıracaq və ya ləğv edilmiş və ya satılmış texniki cəhətdən köhnəlmiş aktivləri siləcəkdir. Faydalı xidmət müddətinə hər maliyyə ilinin sonunda yenidən baxılır. Yuxarıda göstərilən şərtlərdən və ya ehtimallardan hər hansı birində dəyişiklik gələcək köhnəlmə dərəcələrinə düzəlişlərlə nəticələnə bilər.

***Debitor borclarının dəyərsizləşməsi.*** Debitor borclarının dəyərsizləşməsi üzrə ehtiyatlar fiziki şəxslərin debitor borclarının yığılması ehtimalının rəhbərlik tərəfindən qiymətləndirilməsinə əsaslanır. Müştərinin əhəmiyyətli maliyyə çətinlikləri, onun müflisləşmə və ya maliyyə strukturunun yenidən təşkilinə məruz qalması ehtimalı və defolt və ya ödənişlərin gecikdirilməsi debitor borclarının potensial olaraq dəyərsizləşmiş olmasını əks etdirən göstəricilər hesab edilir. Əgər əsas müştərinin ödəniş qabiliyyətində pisləşmə baş verərsə və ya bu faktiki defolt təxminlərindən yuxarı olarsa, faktiki nəticələr bu təxminlərdən fərqlənə bilər.

## 4 Uçot Siyasətinin Tətbiqi Zamanı Əhəmiyyətli Ehtimallar və Mülahizələr (Davamı)

Debitor borcları üzrə əlavə pul vəsaitlərinin bərpası gözlənilmədikdə, debitor borcları müvafiq ehtiyatlara silinir. Debitor borclarının qiymətdəndüşmə kimi dəyərləndirilən gələcək pul vəsaitləri axını aktivlərin müqavilə üzrə pul vəsaitləri şəklində axınına və rəhbərliyin keçmiş dövrlərə istinadən hansı məbləğdə gecikdirilmələrin olacağı və onların hansı hissəsinin bərpa olacağını təyin etmə təcrübəsinə əsasən təxmin olunur. Keçmiş dövrlərin təcrübəsi cari müşahidə olunan məlumata köçürülərək cari vəziyyətin keçmiş dövrlərə təsir göstərməyən və keçmişə aid cari dövrdə mövud olmayan effektləri əks etdirmək üçün uyğunlaşdırılır.

## 5 Əmlak və Avadanlıqlar

| | Binalar, Tikililər və Qurğular | Maşınlar, Avadanlığlar, və Hesablama Texnikası | Nəqliyyat vasitələri | Digər Əsas vəsaitlər | Cəmi |
|---|---|---|---|---|---|
| 1 yanvar 2013-cü il tarixinə dəyər | 74,221 | 5,685,037 | 1,867,127 | 824,862 | 8,451,247 |
| Yığılmış köhnəlmə | (17,632) | (4,275,624) | (1,123,911) | (399,100) | (5,816,267) |
| **1 yanvar 2013-cü il tarixinə qalıq dəyəri** | **56,589** | **1,409,413** | **743,216** | **425,762** | **2,634,980** |
| Əlavələr | - | 108,503 | 448,088 | 52,938 | 609,529 |
| Silinmələr | - | - | (19,821) | (52,946) | (72,767) |
| Köhnəlmə xərci | (3,961) | (320,629) | (155,048) | (59,538) | (539,176) |
| **1 yanvar 2014-cü il tarixinə qalıq dəyəri** | **52,628** | **1,197,287** | **1,016,435** | **366,216** | **2,632,566** |
| 1 yanvar 2014-cü il tarixinə dəyər | 74,221 | 5,793,540 | 2,295,394 | 824,854 | 8,988,009 |
| Yığılmış köhnəlmə | (21,593) | (4,596,253) | (1,278,959) | (458,638) | (6,355,443) |
| **1 yanvar 2014-cü il tarixinə qalıq dəyəri** | **52,628** | **1,197,287** | **1,016,435** | **366,216** | **2,632,566** |
| Əlavələr | - | 362,033 | 138,449 | 50,423 | 550,905 |
| Silinmələr | - | - | (7,382) | - | (7,382) |
| Köhnəlmə xərci | (3,557) | (256,194) | (236,068) | (82,107) | (577,926) |
| **31 dekabr 2014-cü il tarixinə qalıq dəyəri** | **49,071** | **1,303,126** | **911,434** | **334,532** | **2,598,163** |
| 31 dekabr 2014-cü il tarixinə dəyər | 74,221 | 6,155,573 | 2,426,461 | 875,277 | 9,531,532 |
| Yığılmış köhnəlmə | (25,150) | (4,852,447) | (1,515,027) | (540,745) | (6,933,369) |
| **31 dekabr 2014-cü il tarixinə qalıq dəyəri** | **49,071** | **1,303,126** | **911,434** | **334,532** | **2,598,163** |

## 6 Ehtiyatlar

| | 31 dekabr 2014 | 1 yanvar 2014 |
|---|---|---|
| Xammal | 3,785,694 | 3,613,738 |
| Hazır Məhsul | 2,872,423 | 2,357,809 |
| Mallar | 812,606 | 827,746 |
| **Cəmi ehtiyatlar** | **7,470,723** | **6,799,293** |

## 7 Qısamüddətli Debitor Borcları

| | 31 dekabr 2014 | 1 yanvar 2014 |
|---|---|---|
| Qısamüddətli debitor borcları | 3,059,723 | 547,317 |
| **Qısamüddətli debitor borcları daxilində cəmi maliyyə aktivləri** | **3,059,723** | **547,317** |
| **Cəmi qısamüddətli debitor borcları** | **3,059,723** | **547,317** |

## 8 Pul Vəsaitləri və Onların Ekvivalentləri

| | 31 dekabr 2014 | 1 yanvar 2014 |
|---|---|---|
| Nağd pul | - | 497,318 |
| Bank hesablarındakı pul vəsaitləri | 8,188,737 | 2,394,281 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **8,188,737** | **2,891,599** |

## 9 Nizamnamə Kapitalı

Şirkətin 31 dekabr 2014-cü il tarixinə pay sahibləri və onların payları aşağıdakı kimidir:

| | 31 dekabr 2014 | 1 yanvar 2014 |
|---|---|---|
| Elşad Abbasov | 1350 | 1,350 |
| Məşhur Məmmədov | 1200 | 1,200 |
| Bəşir Sultanov | 1200 | 1,200 |
| **Cəmi nizamnamə kapitalı** | **3,750** | **3,750** |

## 10 Faiz Xərcləri Yaradan Öhdəliklər

| | 31 dekabr 2014 | 1 yanvar 2014 |
|---|---|---|
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| Azərbaycan Beynəlxalq Bankı ASC | 69,640 | 907,137 |
| Dəmir Bank ASC | 498,857 | 750,010 |
| **Cəmi qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | **568,497** | **1,657,147** |
| **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| Embawood MMC tərəfindən buraxılmış istiqrazlar üzrə borc | 10,000,000 | - |
| Qara Dəniz Ticarət və İnkişaf Bankı | 9,412,800 | - |
| Avropa Yenidənqurma və İnkişaf Bankı | - | 7,056,000 |
| Bank Technique ASC | 599,600 | 1,131,361 |
| Bank VTB - Azərbaycan ASC | 104,788 | 507,052 |
| Azərbaycan Beynəlxalq Bankı ASC | - | 279,353 |
| **Cəmi uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | **20,117,188** | **8,973,766** |
| **Cəmi faiz xərcləri yaradan öhdəliklər** | **20,685,685** | **10,630,913** |

22 avqust 2014-cü il tarixində Embawood MMC tərəfindən fəaliyyətinin genişləndirilməsi üçün maliyyələşmə əldə etmək məqsədilə geri alınma tarixi 22 avqust 2015-ci il olmaqla, 10 milyon AZN ümumi məbləğində istiqraz buraxılmışdır.

Azərbaycan Beynəlxalq Bankı ASC-dən ("ABB") alınmış kreditə illik 6.3% faiz dərəcələri üzrə 3 iyun 2010-cu il tarixində kredit xətti əsasında əldə edilmiş və bitmə tarixi 30 iyun 2015-ci il olan vəsaitlər daxildir. ABB-dən alınmış kreditlər istehsal işlərinin maliyyələşdirilməsinə yönəldilmişdir.

Dəmir Bank ASC-dən alınmış kreditlərə illik 15% faiz dərəcəsi üzrə kredit xətti əsasında 8 iyul 2014-cü il tarixində əldə edilmiş və bitmə tarixi 8 iyul 2015-ci il olan vəsaitlər daxildir. Dəmir Bankdan alınmış kreditlərin tikinti işlərinin maliyyələşdirilməsinə yönəldilməsi nəzərdə tutulur.

Qara Dəniz Ticarət və İnkişaf Bankından ("QDTİB") əldə edilmiş vəsaitlərə 19 dekabr 2014-cü il tarixində Şirkət tərəfindən Azərbaycanda beton örtüklər və digər müvafiq məhsullar istehsalı üçün yeni zavodun tikintisi və fəaliyyətinin maliyyələşdirilməsi məqsədilə əldə edilmiş, illik faiz dərəcəsi 4.75% + LIBOR olmaqla, bitmə tarixi 19 dekabr 2019-cu il olan kredit daxildir. Kreditin ilkin ödənişi tarixindən 12 ay müddətində başlayaraq 9 bərabər yarım-illik hissələrlə geri ödənilməsi nəzərdə tutulur. 31 dekabr 2014-cü il tarixinə Şirkət bu kreditlə bağlı müvafiq müqavilədə göstərilən şərtlərə uyğun olmuşdur.

Bank Technique ASC-dən alınmış kreditlərə illik 6.2% faiz dərəcəsi üzrə kredit xətti əsasında 15 noyabr 2010-cu il tarixində əldə edilmiş və bitmə tarixi 31 iyul 2015-ci il olan vəsaitlər daxildir.

Bank VTB – Azərbaycan ASC-dən alınmış kreditlərə illik 10% faiz dərəcəsi üzrə kredit xətti əsasında 12 mart 2012-ci il tarixində əldə edilmiş və bitmə tarixi 12 mart 2015-ci il olan vəsaitlər daxildir.

## 11 Qısamüddətli Kreditor Borcları

| | 31 dekabr 2014 | 1 yanvar 2014 |
|---|---|---|
| Sair Kreditor Borcları | 38,182 | 161,568 |
| Alınmış avanslar | 483,019 | 2,043,889 |
| **Cəmi qısamüddətli kreditor borcları** | **521,201** | **2,205,457** |

Qısamüddətli kreditor borcları əmlak və avadanlığın, ehtiyatların əldə edilməsi ilə bağlı borcları əks etdirir. Alınmış avanslar Qrup tərəfindən həyata keçirilən istehsal işləri üçün müştərilərdən alınmış məbləğləri əks etdirir.

## 12 Əsas Əməliyyat Gəliri

| | 31 dekabr 2014-cü il tarixində tamamlanan il | 31 dekabr 2013-cü il tarixində tamamlanan il |
|---|---|---|
| Ev mebeli satışından gəlir | 17,830,422 | 17,644,576 |
| Ofis mebeli satışından gəlir | 4,280,988 | 4,236,367 |
| Xidmət satışından gəlir | 1,017,467 | 1,006,863 |
| **Cəmi əsas əməliyyat gəliri** | **23,128,877** | **22,887,806** |

## 13 Satışların Maya Dəyəri

| | 31 dekabr 2013-cü il tarixində tamamlanan il | 31 dekabr 2013-cü il tarixində tamamlanan il |
|---|---|---|
| Xammal və materialların dəyəri | 9,472,865 | 9,528,986 |
| Hazır məhsulun dəyəri | 1,423,255 | 1,396,855 |
| Köhnəlmə xərcləri | 259,752 | 324,591 |
| **Cəmi satışların maya dəyəri** | **11,155,872** | **11,250,432** |

## 14 İnzibati Xərclər

| | 31 dekabr 2014-cü il tarixində tamamlanan il | 31 dekabr 2013-cü il tarixində tamamlanan il |
|---|---|---|
| İşçilərlə bağlı xərclər | 5,781,901 | 5,399,612 |
| İcarə xərcləri | 940,502 | 870,407 |
| Ezamiyyə xərcləri | 152,984 | 435,511 |
| Nəqliyyat xərcləri | 451,248 | 564,746 |
| Kommunal xərclər | 500,171 | 517,414 |
| Yanacaq xərcləri | 576,008 | 415,125 |
| Bank komissiyaları | 596,658 | 469,366 |
| Köhnəlmə xərcləri | 318,174 | 214,585 |
| Reklam xərcləri | 386,897 | 398,207 |
| Rabitə xərcləri | 295,190 | 206,986 |
| Sığorta xərcləri | 155,962 | 115,545 |
| Mühafizə xərcləri | 74,103 | 72,652 |
| Təmir və saxlanma xərcləri | 51,354 | 57,737 |
| Mənfəət vergisindən başqa vergilər | 24,424 | 25,451 |
| Digər xərclər | 198,656 | 238,694 |
| **Cəmi inzibati xərclər** | **10,504,232** | **10,002,038** |

## 15 Mənfəət Vergisi

Qrupun 2014-cü il üzrə gəlirinə tətbiq edilən mənfəət vergisi dərəcəsi 20% təşkil edir. Gözlənilən və faktiki vergi xərcləri arasındakı üzləşdirmə aşağıda göstərilmişdir:

| | 31 dekabr 2014-cü il tarixində tamamlanan il | 31 dekabr 2013-cü il tarixində tamamlanan il |
|---|---|---|
| **Vergidən əvvəlki mənfəət** | **912,588** | **902,436** |
| Qanunvericiliklə müəyyən edilmiş vergi dərəcəsi (20%) | 182,518 | 180,487 |
| **İl üzrə mənfəət vergisi xərci** | **182,518** | **180,487** |

## 16 Şərti Öhdəliklər

***Məhkəmə prosedurları.*** 31 dekabr 2014-cü il tarixinə Qrupa qarşı açıq məhkəmə prosesləri olmamışdır və müvafiq olaraq, 31 dekabr 2014-cü və 31 dekabr 2013-cü il tarixlərinə hazırkı maliyyə hesabatlarında heç bir ehtiyat yaradılmamışdır.

***Vergi qanunvericiliyi.*** Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Qrupun əməliyyatlarına və fəaliyyətinə tətbiq edilən bu cür qanunvericiliyə dair Rəhbərliyin şərhlərinə müvafiq orqanlar tərəfindən etiraz edilə bilər. Bunun nəticəsində Qrupa qarşı böyük məbləğdə əlavə vergilər, cərimələr və faizlər hesablana bilər.

31 dekabr 2001-ci ildə bitən maliyyə ilindən başlayaraq, fiskal dövrlər yoxlama ilindən əvvəlki üç il üzrə vergi rəsmiləri tərəfindən yoxlanılmaq üçün açıq saxlanılır. Azərbaycan Respublikası Vergi Məcəlləsinin bu maddəsi 2001-ci ildən əvvəlki dövrlərə aid edilmir. Konkret qanunvericilik şərtlərinə əsasən yoxlamalar daha uzun dövrləri əhatə edə bilər.

Rəhbərlik hesab edir ki, onun tərəfindən müvafiq qanunvericiliyin şərhi düzgündür və vergi, xarici valyuta və gömrüklə bağlı Qrupun mövqeləri qorunacaqdır. Buna uyğun olaraq, 31 dekabr 2014-cü il tarixinə potensial vergi öhdəlikləri üzrə heç bir ehtiyat ayırmaları qeyd edilməmişdir (2013: sıfır).

## 17 Maliyyə Risklərinin İdarə Edilməsi

Qrupun adi fəaliyyət gedişində o, müxtəlif maliyyə risklərinə məruz qalır: bazar riski (valyuta riski, ədalətli dəyərdə faiz dərəcəsi riski, pul axınları faiz dərəcəsi riski və qiymət riski daxil olmaqla), kredit riski və likvidlik riski. Qrupda risklərin idarə edilməsi proqramı maliyyə bazarlarının qeyri-müəyyənlini nəzərə alaraq Qrupun maliyyə nəticələrinə potensial mənfi təsirləri minimallaşdırmağa çalışır.

Risklərin idarə edilməsi Qrupun rəhbərliyi tərəfindən Qrupun fəaliyyət vahidləri ilə sıx əlaqədə həyata keçirilir. Rəhbərlik riskləri minimal qəbul edilən səviyyəyə gətirmək üçün bütün lazımi addımları atır.

Qrupun məruz qaldığı əsas risklər bazar riski (xarici valyuta riski) və kredit riskidir (debitorlar).

***Xarici valyuta riski.*** Qrup, əsasən ABŞ dollar və Avro ilə bağlı müxtəlif valyuta təsirlərindən irəli gələn xarici valyuta riskinə məruz qalır. Xarici valyuta riski gələcək kommersiya əməliyyatları Qrupun funksional valyutası olmayan valyuta ilə ifadə ediləndə yaranır.

Qeyd 18-də göstərildiyi kimi, 21 fevral 2015-ci il tarixində AZN ABŞ dollar və Avro ilə münasibətdə təqribən 34% devalvasiyaya uğramışdır.

Rəhbərlik Qrupun xarici valyuta riskinin funksional valyutaya münasibətdə idarə edilməsini tələb edən qaydalar hazırlamışdır.

***Kredit riski.*** Bu ticarət debitor borcları ilə bağlı riskdir. Qrup kontragentin vaxtı gəldikdə öz borclarını ödəmək qabiliyyətində olmamasını nəzərdə tutan kredit riskinə məruz qalır.

Hesabat dövründə Qrupun debitor borcları üzrə heç bir kredit limiti aşılmamışdır və rəhbərlik tərəfindən debitor borcları üzrə itkilər gözlənilmir.

## 18 Hesabat Dövründən sonra Baş Vermiş Hadisələr

21 fevral 2015-ci il tarixində Azrəbaycan Respublikasının Mərkəzi Bankı AZN məzənnəsinin təqribən 34% devalvasiyasını həyata keçirmişdir. Bunun nəticəsi olaraq, AZN məzənnəsi ABŞ dollarına münasibətdə 1.05 AZN, Avroya münasibətdə isə 1.19 AZN təyin edilmişdir. Manatın 31 dekabr 2014-cü il tarixinə rəsmi məzənnəsi Qeyd 3-də göstərilmişdir.